**Azərbaycan Respublikasında gənclər siyasəti sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun əsasında “Azərbaycan Respublikasının Gənclər Fondu” publik hüquqi şəxs yaradılsın.

2. “Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsi” təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Gənclər Fondunda (bundan sonra – Fond) təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. nizamnaməsinin təsdiqi, nizamnamə fondunun miqdarının müəyyən edilməsi *və onların dəyişdirilməsi;*[1]

*3.1.2. idarəetmə orqanlarının yaradılması, onların rəhbərlərinin (üzvlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;*[2]

3.1.3. yenidən təşkili və ləğvi məsələləri;

3.1.4. təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, idarə, filial və nümayəndəliklərinin yaradılmasına razılıq verilməsi;

3.1.5. xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri publik hüquqi şəxsin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanmasına razılıq verilməsi;

*3.1.6. “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;*[3]

~~3.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:~~ [4]

~~3.2.1. illik maliyyə hesabatlarının təsdiqi;~~

3.3. Fonda:

3.3.1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla strukturunun, *əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin* təsdiqi; [5]

3.3.2. inkişaf istiqamətlərinin müəyyən edilməsi;

*3.3.3. illik maliyyə hesabatlarının təsdiqi.*[6]

4. Müəyyən edilsin ki:

4.1. Fondun nizamnamə fondu 115 000 (yüz on beş min) manatdır və dövlət büdcəsi vəsaiti hesabına formalaşdırılır;

4.2. Fondda 9 nəfər üzvdən ibarət Müşahidə Şurası yaradılır, Fondun Müşahidə Şurasının üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi~~, habelə onların səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi~~ Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir;[7]

4.3. Fondun fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İcraçı direktor rəhbərlik edir.

5. Fond "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındıqdan sonra Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun balansındakı dövlət əmlakı həmin Fondun balansına verilsin.

6. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Fondun vəsaitindən istifadə, o cümlədən Fondun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi qaydasının layihəsini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

7. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

7.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. Gənclər siyasəti ilə bağlı proqram və layihələrin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi qaydasını, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində müəyyən etsin;

7.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

7.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

7.5. Fond dövlət qeydiyyatına alındığı gündən üç ay müddətində, bu Fərmanın 5-ci hissəsi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun balansındakı dövlət əmlakının Fondun balansına verilməsini təmin etsin;

7.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

8. Fond:

8.1. dövlət qeydiyyatına alınması üçün bu Fərmanın qüvvəyə mindiyi tarixdən üç gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Vergilər Nazirliyinə müraciət etsin;

8.2. dövlət qeydiyyatına alındığı gündən etibarən üç gün müddətində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

8.3. strukturunu, işçilərinin say həddini, əməyin ödənilməsi formalarını və miqdarını, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində təsdiq etsin.

9. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 4.1-ci bəndində göstərilən məbləğdə maliyyələşməni bir ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

10. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 mart 2018-ci il
№ 1871

| | |
|---|---|
| | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 mart tarixli 1871 nömrəli Fərmanı ilə təsdiq edilmişdir |

**Azərbaycan Respublikasının Gənclər Fondunun**

## NİZAMNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Gənclər Fondu (bundan sonra - Fond) Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun əsasında yaradılmış, gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş fəaliyyətin stimullaşdırılmasını təmin edən publik hüquqi şəxsdir.

1.2. Fond öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Fond öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Fond ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Fond bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. Fondun müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. Qanuna uyğun olaraq, Fondun əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır, o, məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edir.

1.7. Fond Bakı şəhərində yerləşir.

## *2. Fondun fəaliyyətinin ~~məqsədi və fəaliyyət~~ istiqamətləri*[8]

~~2.1. Fondun fəaliyyətinin əsas məqsədi gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş ictimai və sosial əhəmiyyətli, o cümlədən beynəlxalq səviyyədə həyata keçirilən layihə və proqramları (bundan sonra – layihə) qrant şəklində məqsədli maliyyələşdirməkdən, həmin sahədə konfrans, seminar, festival, olimpiada və digər tədbirlərin təşkilindən, habelə gənclərə maliyyə köməyi nəzərdə tutan layihələri dəstəkləməkdən ibarətdir.~~ [9]

2.2. Fondun fəaliyyət istiqamətləri aşağıdakılardır:

*2.2.1. gənclər siyasəti ilə bağlı yerli və beynəlxalq səviyyədə layihə və proqramları (bundan sonra – layihə) həyata keçirmək;* [10]

*2.2.2. gənclər siyasətinin həyata keçirilməsində iştirak etmək;*

*2.2.3. gənclərin və gənclər təşkilatlarının fəaliyyətini, habelə dövlət və yerli özünüidarəetmə orqanları tərəfindən gənclər siyasəti sahəsində həyata keçirilən layihə və proqramları dəstəkləmək;*

*2.2.4. gənclər siyasəti sahəsində normativ hüquqi aktların layihələrinin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;*

*2.2.5. bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.*

## 3. Fondun vəzifələri və hüquqları

3.1. Fond, bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. gənclərlə bağlı dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak edir;

*3.1.1-1. gənclər siyasəti sahəsində normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak edir;* [11]

*3.1.1-2. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə müəyyən olunmuş hallarda normativ xarakterli akt qəbul edir;* [12]

*3.1.2. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və Fondun səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin edir;*[13]

3.1.3. bu Nizamnamə ilə müəyyən edilmiş məqsədlərə uyğun olaraq, gənclər siyasəti sahəsində layihələrin həyata keçirilməsini və qrant maliyyələşdirilməsini təşkil edir; [14]

*3.1.3-1. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 654 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrant verə bilən qurumların siyahısı"nda göstərilmiş qurumların gənclər siyasəti sahəsində Azərbaycan Respublikasının hüquqi şəxsləri olan qeyri-hökumət təşkilatlarına verdiyi qrantlar vasitəsilə maliyyələşdirilməsi nəzərdə tutulan mövzuları Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi ilə birlikdə qiymətləndirir və bu qrantlara dair rəy verir;*[15]

3.1.4. layihələrin həyata keçirilməsi üçün Fondun vəsaitinin xərclənməsi istiqamətlərini *bu Nizamnaməyə uyğun olaraq* müəyyən edir; [16]

3.1.5. layihələrin qrant maliyyələşdirilməsi üzrə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada müsabiqələrin keçirilməsini təşkil edir və onların nəticələrini açıqlayır;

*3.1.6. Fondun vəsaiti hesabına maliyyələşdirilən layihələrin Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi "Fondun vəsaitindən istifadə, o cümlədən Fondun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi qaydası"na uyğun olaraq ekspertizadan keçirilməsini və monitorinqini təşkil edir;*[17]

*3.1.7. dövlət proqramlarında gənclər siyasəti sahəsinə aid olan istiqamətlər üzrə layihələrin maliyyələşdirilməsinə üstünlük verir;*[18]

*3.1.8. gənclərin inkişafı məqsədilə yerli və beynəlxalq layihələrin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak edir;*[19]

*3.1.9. sosial müdafiəyə ehtiyacı olan istedadlı gənclərə ölkə daxilində təhsil aldıqları müddətdə təhsil və yataqxanada yaşayış xərclərini Fondun vəsaiti hesabına, bu Nizamnamənin 3.1.6-cı yarımbəndinə uyğun olaraq müsabiqə əsasında maliyyələşdirir;*[20]

*3.1.9-1. gənclərin və gənclər təşkilatlarının beynəlxalq tədbirlərdə iştirakını maliyyələşdirir;*[21]

*3.1.10. Fondun vəsaiti hesabına gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilini (o cümlədən qeyri-formal təhsilini), eləcə də beynəlxalq təşkilatlarda təcrübə proqramlarında iştirakını bu Nizamnamənin 3.1.6-cı yarımbəndinə uyğun olaraq müsabiqə əsasında maliyyələşdirir;*[22]

3.1.11. gənclərin məşğulluğunu təmin etmək, eləcə də işə düzəlməkdə çətinlik çəkən gənclər üçün əlavə iş yerləri yaradan işəgötürənləri həvəsləndirmək məqsədilə

~~bu Nizamnaməyə və işəgötürənlə bağlanmış razılaşma müqaviləsinə uyğun olaraq, gənclərin işə cəlb edilməsini nəzərdə tutan layihələr çərçivəsində gənclərə ödəniləcək əməkhaqqını 1 (bir) ildən çox olmayan müddət ərzində Fondun vəsaiti hesabına qismən maliyyələşdirir;~~

3.1.12. Fonda ayrılan büdcə vəsaitindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

3.1.13. Fondun ayırdığı vəsaitdən təyinatı üzrə istifadə olunmasına nəzarət edir, həmin vəsaitdən təyinatı üzrə istifadə edilmədikdə, maliyyələşdirmənin dayandırılması və verilən vəsaitin qaytarılması üçün tədbirlər görür;

3.1.14. dövlət orqanları, beynəlxalq təşkilatlar, hüquqi və fiziki şəxslər tərəfindən maliyyələşdirilən məqsədli proqram və layihələrin həyata keçirilməsində iştirak edir;

3.1.15. *fəaliyyət istiqamətlərinə uyğun olaraq,* istedadlı və fəal gənclərin mükafatlandırılmasını təmin edir;[23]

*3.1.16. bu Nizamnaməyə uyğun olaraq, gənclər üçün əhəmiyyət kəsb edən, habelə gənclər siyasəti sahəsində qəbul olunmuş normativ hüquqi aktlardan, dövlət proqramlarından, ölkənin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn məsələlərə dair istedadlı və yaradıcı gənclərin və gənclər təşkilatlarının Azərbaycan Respublikasında və onun hüdudlarından kənarda layihələrini dəstəkləyir;*[24]

~~3.1.17. kadr hazırlığını stimullaşdırır, *peşəkar mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər verir və onların həyata keçirilməsində iştirak edir,*istedadlı gənclərin, *gənc alim və tədqiqatçıların* məlumat bankını yaradır;~~[25]

*3.1.17-1. Fondun əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görür;*[26]

~~3.1.18. gənclər təşkilatlarının maddi-texniki inkişafı yolu ilə vətəndaş cəmiyyətini və ictimai təşəbbüskarlığı dəstəkləyir;~~

~~3.1.19. gənclərin internet media sahəsində inkişafını dəstəkləyir;~~

~~3.1.20. animasiya və bədii filmlər vasitəsilə gənclərin Azərbaycan xalqının dilinə, adət və ənənələrinə, mənəvi dəyərlərinə, dövlət rəmzlərinə hörmət, azərbaycançılıq, vətənpərvərlik ruhunda tərbiyəsini gücləndirmək üçün tədbirlər görür;~~

~~3.1.21. gənclərin ekoloji maarifləndirilməsi məqsədilə onlar arasında müxtəlif tədbirlər, o cümlədən təlimlər və tətbiqi layihələr həyata keçirir;~~

~~3.1.22. beynəlxalq əməkdaşlığın genişləndirilməsi vasitəsilə ölkənin beynəlxalq səviyyədə mövqeyinin möhkəmləndirilməsində iştirak edir;~~

~~3.1.23. gənclərin, o cümlədən əcnəbi gənclərin Azərbaycan tarixinə və mədəniyyətinə dair tədqiqat işlərini dəstəkləyir;~~

~~3.1.24. Azərbaycanın təqdimatına və təbliğinə yönəldilmiş layihələri dəstəkləyir;~~

*3.1.24-1. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil edir;*[27]

3.1.25. gənclərin vəziyyətinin öyrənilməsi *və gənclər təşkilatlarının fəaliyyətinə dair təhlillər aparılması*, müvafiq statistik məlumatların toplanması istiqamətində iş aparır; [28]

~~3.1.26. gənclərin təhsili, sağlamlığı, peşəyönümü, məşğulluğu, inkişafı, asudə vaxtının səmərəli təşkili üçün zəruri olan hüquqi, iqtisadi və digər məlumatların toplanması və yayılması üzrə layihələrin həyata keçirilməsinə kömək edir;~~

~~3.1.27. bu Nizamnamə ilə müəyyən edilmiş məqsədlərə uyğun olaraq gənclərin təqdim etdikləri innovativ layihələrin (startap) maliyyələşdirilməsi üçün Fondun vəsaiti (qrantlar istisna olmaqla) hesabına Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi qaydada müvəkkil banklar və bank olmayan kredit təşkilatları (bundan sonra - müvəkkil kredit təşkilatları) vasitəsilə güzəştli kreditlər ayırır;~~

~~3.1.28. Fondun bu Nizamnamənin 3.1.27-ci yarımbəndində göstərilən vəsaiti hesabına güzəştli kreditin alınması ilə bağlı müvəkkil kredit təşkilatlarının müraciətlərinə baxır və bu Nizamnamənin 3.1.6-cı yarımbəndinə uyğun olaraq keçirilən ekspertizanın rəyindən asılı olaraq, həmin müraciətlərin təmin olunması və ya imtina edilməsi barədə müvafiq qərarlar qəbul edir;~~

*3.1.29. gənclər təşkilatlarının maddi-texniki bazalarının möhkəmləndirilməsi üçün malların alınmasına və həmin təşkilatların saxlanmasına yardım göstərir;*[29]

3.1.30. *gənclər siyasəti sahəsində görülmüş işlər və öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının, sosial şəbəkə platformalarında səhifələrinin və mobil tətbiqin yaradılmasını və mütəmadi yenilənməsini*, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yeniləşdirilməsini təmin edir;[30]

3.1.31. Fondun informasiya təminatını və onun təhlükəsizliyini təşkil edir;

3.1.32. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görür;

3.1.33. Fondun strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görür;

3.1.34. Fondun fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə *"Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxır və qanunla müəyyən edilmiş qaydada tədbirlər görür;*[31]

*3.1.34-1. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, fəaliyyət istiqamətləri ilə bağlı elmi-texniki nailiyyətlərin tətbiqini təmin edir;* [32]

*3.1.34-2. gənclər siyasəti sahəsində elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil edir;*

*3.1.34-3. dövlət orqanları və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahədə fəaliyyətini əlaqələndirmək;*

3.1.35. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirir.

3.2. Fond öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları həyata keçirir:

3.2.1. beynəlxalq əlaqələr qurur, *beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə* beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq edir;[33]

*3.2.1-1. gənclər siyasəti sahəsində normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif verir;*[34]

3.2.2. gənclər siyasəti sahəsində beynəlxalq təcrübəni öyrənir və xaricdə fəaliyyət göstərən müvafiq qurumlarla təcrübə və informasiya mübadiləsi aparır;

*3.2.2-1. fəaliyyət istiqamətləri ilə bağlı beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər verir;*[35]

3.2.3. bu Nizamnamə ilə müəyyən edilmiş məqsədlərə uyğun olaraq, Azərbaycan Respublikasında və xarici ölkələrdə hüquqi və fiziki şəxslərlə işgüzar münasibətlər qurur;

3.2.4. bu Nizamnamə ilə müəyyən edilmiş məqsədlərə uyğun olan layihələrin maliyyələşdirilməsi məsələsini həll edir;

3.2.5. dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə gənclər siyasəti sahəsində zəruri məlumatlar (sənədlər) barədə sorğu verir və onlardan məlumatlar (sənədlər) alır;

3.2.6. Fondun fəaliyyətini, o cümlədən maliyyələşdirdiyi layihələrin mühüm nəticələrini ölkə daxilində və xaricdə təbliğ edir;

3.2.7. Fondun vəsaiti hesabına maliyyələşdirilən layihələrin bu Nizamnamənin 3.1.6-cı yarımbəndinə uyğun olaraq ekspertizadan keçirilməsi üçün *müstəqil* mütəxəssisləri (ekspertləri) cəlb edir;[36]

*3.2.7-1. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər verir, təhlillər və ümumiləşdirmələr aparır, analitik materiallar hazırlayır;*

*3.2.7-2. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirir və digər tədbirlər təşkil edir;*

*3.2.7-3. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim edir, onların həvəsləndirilməsi üçün tədbirlər görür;*[37]

3.2.8. xüsusi bülletenlər və digər nəşrlər buraxır;

3.2.9. Fonda maliyyə ehtiyatlarının cəlb olunması üçün tədbirlər görür;

3.2.10. öz fəaliyyətinə könüllüləri cəlb edir;

3.2.11. gənclər siyasəti sahəsində normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak edir;

~~3.2.12. istifadəsində olan əmlaka münasibətdə qanunla nəzərdə tutulmuş hüquqları həyata keçirir;~~[38]

~~3.2.13. Fondun balansında olan dövlət əmlakını qanunvericiliyə uyğun olaraq icarəyə verir və ya ondan istifadə edir;~~

3.2.14. *sahibkarlıq fəaliyyəti ilə məşğul olur,* təsərrüfat cəmiyyətləri yaradır və ya onlarda iştirak edir; [39]

*3.2.14-1. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparır, işçi qruplar və komissiyalar yaradır;*[40]

3.2.15. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirir.

## 4. Fondun idarə olunması

4.1. Fond öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Fondu Müşahidə Şurası və İcraçı direktor idarə edirlər.

4.3. Fondun Müşahidə Şurası (bundan sonra – Şura) Fonda ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

4.4. Şura, onun sədri də daxil olmaqla, doqquz üzvdən ibarətdir. Şura üzvlərini Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir. ~~Şura üzvlərinin səlahiyyət müddəti 4 ildir.~~ [41]

4.5. Şura ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.

4.6. Şura qərar qəbul etməkdə müstəqildir *(bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla).* [42]

4.7. Şura aşağıdakı vəzifələri yerinə yetirir:

4.7.1. Fondun inkişaf istiqamətlərini*, strateji məqsəd və planlarını* müəyyən edir;[43]

*4.7.1-1. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə ~~və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə~~ təkliflər verir və sənədlər (o cümlədən Fondun maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim edir;* [44]

*4.7.1-2. Fondun fəaliyyətinə nəzarət edir;*[45]

*4.7.1-3. bu Nizamnamənin 4.14-cü bəndinin üçüncü cümləsində nəzərdə tutulmuş qərarı qəbul edir;*[46]

4.7.2. Şura üzvlərinin və İcraçı direktorun müraciətlərinə baxır və qərar qəbul edir;

4.7.3. Fondun fəaliyyətinə dair illik hesabatı dinləyir;

4.7.4. Fondun kənar auditorunu təyin edir və audit hesabatını qəbul edir;

*4.7.4-1. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görür;*

*4.7.4-2. qrant müsabiqələrini elan edir, müsabiqə zamanı müraciət edən gənclərin və gənclər təşkilatlarının layihələrini qiymətləndirir və müsabiqənin nəticələrinə görə qalib layihələri elan edir;*[47]

*4.7.4-3. layihələrin qrant müsabiqəsindən kənar maliyyələşdirilməsi üçün Fondun ayıracağı vəsaitin həcmini, istiqamətləri və ondan istifadə qaydasını müəyyən edir;*[48]

4.7.5. Fondun strukturunu, *əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini* Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq edir, *Fondun əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirir;*[49]

*4.7.6. Azərbaycan Respublikası Prezidentinin razılığı ilə Fondun təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin Fondun idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul edir;*[50]

~~*4.7.6-1. normativ xarakterli aktları təsdiq edir;*~~ [51]

*4.7.6-2. maliyyə planlaşdırmasını və büdcəsini təsdiq edir;*

*4.7.6-3. İcraçı direktorun fəaliyyətinə nəzarət edir və onun fəaliyyətini yoxlayır;*

*4.7.6-4. Azərbaycan Respublikası Prezidentinin razılığı ilə Fondun xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Fondun aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edir;*[52]

4.7.7. Fondun fəaliyyətinə dair daxili qaydaları *(o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını),* habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, ~~*törəmə*~~*təsərrüfat cəmiyyətlərinin nizamnamələrini* təsdiq edir;[53]

*4.7.8. Fondda daxili audit bölməsinin fəaliyyətinə nəzarət edir və fəaliyyətinə dair hesabatlar alır, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad edir.*[54]

4.8. *Şuranın sədri ildə azı bir dəfə Şuranın iclaslarını çağırır və iclaslara sədrlik edir.* Şuranın iclaslarının keçirilməsi təşəbbüsü ilə Şuranın üzvü və ya *İcraçı* direktor çıxış edir. Şuranın iclasları Şura üzvlərinin *yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir*. Şuranın iclasında qərarlar, hər üzv bir səsə malik olmaqla, *açıq səsvermə yolu ilə* sadə səs çoxluğu ilə qəbul edilir. *Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.* Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir.[55]

4.9. Şuranın sədri müvəqqəti olmadıqda, onun *səlahiyyətlərini müvafiq əmrlə Şuranın üzvləri arasından sədrin müəyyən etdiyi şəxs icra edir.* [56]

*4.9-1. Şuranın üzvlərinə, habelə İcraçı direktora və Şuranın iclaslarına dəvət olunan şəxslərə Şuranın iclaslarının keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.* [57]

*4.9-2. Şuranın iclasında İcraçı direktor da iştirak edə bilər.*

*4.9-3. iclasın gündəliyinə Şuranın hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.*

*4.9-4. gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla qərar qəbul edilə bilməz.*[58]

*4.9-5. Şuranın iclasının nəticəsi Şura üzvlərinin və katibinin imzaladıqları protokolda əks olunmaqla rəsmiləşdirilir. Şuranın katibi Şuranın iclasında iştirak edə bilmədikdə, Şuranın sədri onu əvəz edəcək şəxsi təyin edir. Şura protokolu təsdiq edərək İcraçı direktora göndərir.*[59]

*4.9-6. Şuranın katibini Şuranın üzvü olmayan əməkdaşlar sırasından Şuranın sədri təyin edir və Şuranın katibi Şuranın sədrinə hesabat verir.*

*4.9-7. Şuranın katibi:*

*4.9-7.1. Şuranın iclaslarını təşkil edir;*

*4.9-7.2. bu Nizamnamənin 4.9-1-ci bəndində nəzərdə tutulmuş vəzifəni icra edir;*

*4.9-7.3. Şuranın iclaslarının protokollarını tərtib edir və imzalanmaq üçün Şuranın üzvlərinə təqdim edir;*

*4.9-7.4. Şuranın qərarlarının layihələrini hazırlayır, baxılmaq və imzalanmaq üçün Şuranın sədrinə təqdim edir;*

*4.9-7.5. Şuranın qəbul etdiyi qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir.*

4.10. Şuranın sədri:

4.10.1. Şuranın işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir, *habelə özünün və İcraçı direktorun qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;*[60]

4.10.2. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclaslar çağırır və iclaslarda sədrlik edir;

4.10.3. öz təşəbbüsü ilə, habelə Şuranın hər hansı digər üzvünün və ya *İcraçı* direktorun xahişi əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edir;[61]

4.10.4. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

4.11. Şuranın üzvləri:

4.11.1. Şuranın səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

4.11.2. Şuranın iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.11.3. Şurada qəbul ediləcək qərarlara dair fikir bildirirlər;

4.11.4. Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxılması barədə təkliflər verirlər;

4.11.5. Şuranın qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.12. Şura üzvləri Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, *həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.*[62]

4.13. Fondun cari fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İcraçı direktor rəhbərlik edir. İcraçı direktor Fonda həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə cavabdehdir.

4.14. İcraçı direktorun vəzifəyə təyin və vəzifədən azad etdiyi iki müavini vardır. İcraçı direktorun müavinləri icraçı direktor tərəfindən onlara həvalə edilmiş vəzifələri

yerinə yetirirlər. *İcraçı direktor olmadıqda Şuranın qərarı ilə, müvəqqəti olmadıqda isə İcraçı direktorun əmri ilə müavinlərindən biri onu əvəz edir.*[63]

*4.14-1. İcraçı direktor və onun müavinləri adlarına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.*[64]

4.15. İcraçı direktor aşağıdakı vəzifələri yerinə yetirir:

4.15.1. Fondun*, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətini təşkil edir, onların* cari fəaliyyətinə rəhbərlik edir və Fondu təmsil edir;[65]

*4.15.1-1. fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;*[66]

~~4.15.2. təsisçinin səlahiyyətlərini həyata keçirmək üçün müvafiq olaraq, Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təkliflər verir və sənədlər təqdim edir;~~[67]

*4.15.3. Şuranın qərarlarını icra edir;*[68]

4.15.4. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələri həyata keçirmək üçün Şuraya təkliflər verir və sənədlər təqdim edir;

*4.15.5. Fondun strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət edir;*

*4.15.6. cari və operativ məsələlər barədə Şuranı məlumatlandırır;*[69]

4.15.7. aidiyyəti şəxslə dəyəri Fondun aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edir;

4.15.8. müəyyən edilmiş struktur, *əməyin ödənişi* fondu və işçilərin say həddi daxilində Fondun Aparatının və qurumlarının strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;[70]

4.15.9. bu Nizamnamənin *3.1.12-ci* yarımbəndində nəzərdə tutulmuş vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;[71]

*4.15.10. Bu Nizamnamənin 3.1.1-1-ci və 3.2.1-1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görür;*[72]

4.15.11. Fondun əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasını təmin edir;

4.15.12. Fondun fəaliyyət istiqamətləri üzrə dövlət və kommersiya sirrinin, *məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi* üçün zəruri tədbirlər görür;[73]

4.15.13. Fondun işçilərinin peşəkarlıq səviyyəsinin artırılmasını, vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini *əməyin ödənişi*fondu çərçivəsində təşkil edir;

4.15.14. *fəaliyyətinin təşkili ilə əlaqədar* icrası məcburi olan sərəncam və əmrlər verir;[74]

4.15.15. bu Nizamnamə ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində Fondun adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.15.16. *Bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla,* Fondun, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin *işçilərinin, həmçinin təsərrüfat cəmiyyətlərinin rəhbərlərinin* vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin görülməsi barədə qərarlar qəbul edir;[75]

4.15.17. *özünün və Fondun struktur bölmələrinin* vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;[76]

4.15.18. Fondun fəaliyyət istiqamətləri üzrə məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.15.19. Fondda kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.15.20. Fondda vətəndaşların qəbulunu və müraciətlərinə baxılmanı təmin edir;

4.15.21. Şuranın səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar verir.

4.16. Fond öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

## 5. Fondun nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları

5.1. Fondun ilkin nizamnamə fondu *250 000 (iki yüz əlli min)* manatdır.[77]

5.2. Fondun əmlakı təsisçi tərəfindən ödənilən nizamnamə fondundan, təsisçinin ona verdiyi digər əmlakdan, habelə dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə edilmiş gəlirdən, ianələrdən, qrantlardan, cəlb olunan investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitlərdən formalaşır.

5.3. Fond öz əmlakından yalnız bu Nizamnamədə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Fond balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri müəyyən edilmiş qaydada ödədikdən sonra Fond öz təsərrüfat cəmiyyətlərinin, idarə, filial və nümayəndəliklərinin fəaliyyətindən əldə edilmiş mənfəəti üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

*5.4-1. Fondun mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Azərbaycan Respublikası Prezidentinin qərarı ilə dövlət büdcəsinə köçürülür.*[78]

5.5. Fond, sərəncamında olan vəsaitdən bu Nizamnaməyə uyğun olaraq, Fondun xərclər smetası əsasında istifadə edir.

5.6. Maliyyə ilinin sonuna Fondun hesabında qalan vəsait növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

*5.7. Fondun məhsullarının (malların, işlərin, xidmətlərin) qiymətləri tənzimlənən qiymətlərə (tariflərə) aid deyildir.*[79]

## 6. Fondun fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. Fondun fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti *və bu Nizamnamə ilə müəyyən edilmiş qaydada Fondun idarəetmə orqanları həyata keçirirlər*. [80]

6.2. Fondun fəaliyyətinə dair illik hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

## 7. Fondda uçot və hesabat

7.1. Fond "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Fond "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ~~statistik uçot aparır,~~ statistik hesabatları tərtib və təqdim edir. [81]

7.3. Fond filial, nümayəndəlik, idarə və təsərrüfat cəmiyyətlərinin maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Fond öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

## 8. Fondun ləğvi və yenidən təşkili

Fondun ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 29 avqust 2018-ci il tarixli **252** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 30 avqust 2018-ci il, № 192, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 8, maddə 1702)**
2. 1 aprel 2020-ci il tarixli **980** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 9 aprel 2020-ci il, № 65, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 4, maddə 397)**
3. 17 noyabr 2022-ci il tarixli **1882** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 17 noyabr 2022-ci il, "Xalq" qəzeti, 18 noyabr 2022-ci il, № 251, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1259)**

4. 25 dekabr 2023-cü il tarixli **2420** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 25 dekabr 2023-cü il, "Xalq" qəzeti, 26 dekabr 2023-cü il, № 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 12, I kitab, maddə 1681)**

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 17 noyabr 2022-ci il tarixli **1882** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 17 noyabr 2022-ci il, "Xalq" qəzeti, 18 noyabr 2022-ci il, № 251, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1259)** ilə 3.1.1-ci yarımbəndə "**müəyyən edilməsi**" sözlərindən sonra "**və onların dəyişdirilməsi**"sözləri əlavə edilmişdir.

[2] 17 noyabr 2022-ci il tarixli **1882** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 17 noyabr 2022-ci il, "Xalq" qəzeti, 18 noyabr 2022-ci il, № 251, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1259)** ilə "Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsi"nin 3.1.2-ci yarımbəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~3.1.2. icra orqanının yaradılması, onun səlahiyyətlərinin müəyyənləşdirilməsi və səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;~~

[3] 17 noyabr 2022-ci il tarixli **1882** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 17 noyabr 2022-ci il, "Xalq" qəzeti, 18 noyabr 2022-ci il, № 251, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1259)** ilə yeni məzmunda 3.1.6-cı yarımbənd əlavə edilmişdir.

[4] 17 noyabr 2022-ci il tarixli **1882** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 17 noyabr 2022-ci il, "Xalq" qəzeti, 18 noyabr 2022-ci il, № 251, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1259)** ilə 3.2-ci bənd ləğv edilmişdir.

[5] 17 noyabr 2022-ci il tarixli **1882** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 17 noyabr 2022-ci il, "Xalq" qəzeti, 18 noyabr 2022-ci il, № 251, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1259)** ilə 3.3.1-ci yarımbəndə "**strukturunun**" sözündən sonra "**, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin**" sözləri əlavə edilmişdir.

[6] 17 noyabr 2022-ci il tarixli **1882** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 17 noyabr 2022-ci il, "Xalq" qəzeti, 18 noyabr 2022-ci il, № 251, Azərbaycan Respublikasının Qanunvericilik**

**Toplusu, 2022-ci il, № 11, maddə 1259)** ilə 3.3.2-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 3.3.3-cü yarımbənd əlavə edilmişdir.

[7] 17 noyabr 2022-ci il tarixli **1882** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 17 noyabr 2022-ci il, "Xalq" qəzeti, 18 noyabr 2022-ci il, № 251, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1259)** ilə 4.2-ci bənddən **", habelə onların səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi**" sözləri çıxarılmışdır.

[8] 29 avqust 2018-ci il tarixli **252** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 30 avqust 2018-ci il, № 192, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 8, maddə 1702)** ilə "Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsi"ndə 2-ci hissənin adı yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~**2. Fondun fəaliyyətinin əsas məqsədi və istiqamətləri**~~

17 noyabr 2022-ci il tarixli **1882** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 17 noyabr 2022-ci il, "Xalq" qəzeti, 18 noyabr 2022-ci il, № 251, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1259)** ilə "Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsi"nin 2-ci hissənin adından "**məqsəd və fəaliyyət**" sözləri çıxarılmışdır.

[9] 17 noyabr 2022-ci il tarixli **1882** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 17 noyabr 2022-ci il, "Xalq" qəzeti, 18 noyabr 2022-ci il, № 251, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1259)** ilə "Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsi"nin 2.1-ci bəndi ləğv edilmişdir.

[10] 17 noyabr 2022-ci il tarixli **1882** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 17 noyabr 2022-ci il, "Xalq" qəzeti, 18 noyabr 2022-ci il, № 251, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1259)** ilə "Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsi"nin 2.2.1 – 2.2.5-ci yarımbəndləri yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~2.2.1. gənclərlə bağlı dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək;~~

~~2.2.2. gənclər siyasəti sahəsində normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək;~~

~~2.2.3. gənclərin, gənclər təşkilatlarının, eləcə də gənclər siyasətinin həyata keçirilməsində iştirak edən dövlət və yerli özünüidarəetmə orqanlarının elmi-tətbiqi, sosial əhəmiyyətli və idarəetmə sahəsi ilə bağlı innovativ ideyalarını dəstəkləmək;~~

~~2.2.4. gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında yaxından iştirakını təmin etmək, onların təşəbbüskarlığının stimullaşdırılması və artırılması istiqamətində tədbirlər görmək.~~

[11] 17 noyabr 2022-ci il tarixli **1882** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 17 noyabr**

**2022-ci il, “Xalq” qəzeti, 18 noyabr 2022-ci il, № 251, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1259)** ilə “Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsi”nin 3.1.1-1-ci yarımbəndində “**qanunvericilik aktlarının**” sözləri “**normativ hüquqi aktların**” sözləri ilə əvəz edilmişdir.

[12] 17 noyabr 2022-ci il tarixli **1882** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 17 noyabr 2022-ci il, “Xalq” qəzeti, 18 noyabr 2022-ci il, № 251, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1259)** ilə “Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsi”nin 3.1.1-2-ci, 3.1.11-ci, 3.1.17-ci, 3.1.18 – 3.1.24-cü, 3.1.26-cı – 3.1.28-ci yarımbəndləri ləğv edilmişdir.

[13] 17 noyabr 2022-ci il tarixli **1882** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 17 noyabr 2022-ci il, “Xalq” qəzeti, 18 noyabr 2022-ci il, № 251, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1259)** ilə “Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsi”nin 3.1.2-ci yarımbəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~3.1.2. Fondun fəaliyyəti ilə bağlı Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin hazırlanmasında və həyata keçirilməsində iştirak edir;~~

[14] 17 noyabr 2022-ci il tarixli **1882** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 17 noyabr 2022-ci il, “Xalq” qəzeti, 18 noyabr 2022-ci il, № 251, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1259)** ilə “Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsi”nin 3.1.3-cü yarımbəndindən “**bu Nizamnamə ilə müəyyən edilmiş məqsədlərə uyğun olaraq**,” sözləri çıxarılmışdır.

[15] 29 avqust 2018-ci il tarixli **252** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 30 avqust 2018-ci il, № 192, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 8, maddə 1702)** ilə “Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsi”nə yeni məzmunda 3.1.1-1-ci, 3.1.1-2-ci və 3.1.3-1-ci yarımbəndlər əlavə edilmişdir.

17 noyabr 2022-ci il tarixli **1882** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 17 noyabr 2022-ci il, “Xalq” qəzeti, 18 noyabr 2022-ci il, № 251, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1259)** ilə “Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsi”nin 3.1.3-1-ci yarımbəndində “**Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası**” sözləri “**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi**” sözləri ilə əvəz edilmişdir.

